UOT 159.9

***Gülnar Vahid qızı Abdullayeva***
*Bakı Dövlət Universitetinin Qazax filialı*

## KİÇİK MƏKTƏBLİ YAŞI DÖVRÜNDƏ HAFİZƏNİN İNKİŞAFI

***Гульнар Вахид гызы Абдуллаева***
*Газахский филиал Бакинского Государственного Университета*

## РАЗВИТИЕ ПАМЯТИ В МЛАДШИЙ ШКОЛЬНЫЙ ПЕРИОД

***Gulnar Vahid Abdullaeva***
*Gazakh branch of Baku State University*

## THE DEVELOPMENT OF MEMORY İN THE PRİMARY SCHOOL PERİOD

**Xülasə:** Məktəbə yeni gəlmiş 6 yaşlı uşaqların hafizəsinin inkişafı ikinci və üçüncü səviyyəyə çatır. Belə ki, uşaqlar bu yaşda mnemik məqsədi kifayət qədər yaxşı ayırmağı bacarırlar. Bu uşaq aktiv yaddasaxlama və yadasalma tələbləri ilə üzləşən zaman baş verir. Məqalədə bu kimi məsələlər araşdırılır.
***Açar sözlər**: müəllim, kiçik məktəbli, hafizə, münasibətlər, təlim proses*

**Резюме:** К шести годам развитие памяти детей достигает второго и третьего уровня. Так как дети в этом возрасте достаточно хорошо могут различать мнемическую цель. Это возникает во время столкновения спроса детского запоминания и воспоминания. В статье рассматриваются такие вопросы.
***Ключевые слова:** учитель, младший школьник, память, отношения, процесс обучения*

**Summary:** By age 6 the development of children's memory reaches the second and third levels. So as children at this age can quite well discern a mnemic goal. This occurs during the collision of the demand of child memory and memories. The article addresses such issues.
***Key words:** teacher, memory, relationships, learning process*

Altı yaşlı uşaqlarda qeyri-ixtiyari hafizə növü üstünlük təşkil edir ki, bu zaman da qarşıya şüurlu məqsəd qoyulmur. Psixoloqlar məhz buna görə, qeyd edirlər ki, uşağın hafizəsi onun marağıdır. Doğrudan da uşaq bu yaşda uzun müddət və asanlıqla onu maraqlandıran onun diqqətini çəkən materialı yadda saxlayır. Məsələn, o oynadığı, quraşdırdığı əşyaları, bir sözlə müəyyən əməliyyatlar apardığı əşyaları daha yaxşı yadda saxlayır. Bu zaman söz də əhəmiyyətli rol oynayır. Belə ki, əgər uşaq rastlaşdığı əşyaların adlarını bilirsə, onları daha yaxşı yadda saxlayır.

Görkəmli psixoloqlardan E. Meyman, A.P. Neçayev qeyd edirlər ki, kiçik məktəbli yaşı boyu hafizə inkişaf edir və onun həcmi genişlənir. Məsələn, IV sinif şagirdləri birinci sinif şagirdlərinə nisbətən 2-3 dəfə çox söz yadda saxlayırlar.

Təlim fəaliyyəti uşaqdan öz hafizəsini idarə etməyi tələb edir. Uşaq xətkeşlə ölçməyi, hərfləri, onların yazılış qaydalarını, rəqəmləri və onların işarələrini, yeni anlayışları, qaydaları ixtiyari olaraq yadda saxlayır. O, bir sıra ümumiləşdirilmiş anlayışları: düzənlik, bitkilər, iqlim, toplanan, çıxılan, fərq, azalan, bərabərlik, sait və samit səslər, səs və hərflər, isim, sifət və s. yadda saxlamalı olur.

S.Q. Barxatovanın, K.P. Maltsevanın, V.İ. Samoxvalovanın, Z.M. İstominanın tədqiqatları göstərir ki, yaddasaxlamanın bütövlüyü tezliyi və möhkəmliyi ilə onların müxtəlif yaş mərhələlərində dəyişməsi arasında müəyyən münasibətlər mövcuddur. Hələ P.P. Balonski belə hesab edir ki, uşaqlarda hafizənin inkişafı qeyri-bərabər gedir: uşaqda sözlü hafizə iki yaşdan sonra funksiya göstərməyə başlayır və yeddi-səkkiz yaşlarda özünün ən yüksək səviyyəsinə çatır. Yeniyetmələrdə isə zəifləyir, sonralar yenə də güclənir. [1]

Şagirdlərin müxtəlif məzmunda yaddasaxlamasının möhkəmliyi və tezliyin xüsusi olaraq öyrənilməsi göstərir ki, bütövlükdə bu göstəricilərə görə şagirdlərin hafizəsi yaş artdıqca yaxşılaşır. E. Meymanın əldə etdiyi nəticələrə görə yaş artdıqca əzbərləmək, öyrənmək qabiliyyəti də artır, yaddasaxlamanın möhkəmliyi isə, əksinə, yaş artdıqca azalır. S.Q. Barxatovanın əldə etdiyi nəticələrə görə yaddasaxlamanın möhkəmliyi II sinifdən V sinfə qədər zəifləyir. Bu dövrdə uşaqların xüsusi yaddasaxlama priyomlarından istifadə etmək cəhdlərinin sayı artır. V.İ. Samoxvalovanın və A.İ. Lipkinanın tədqiqatları göstərir ki, şagirdlərin hafizəsinin məhsuldarlığı bir sıra amillərdən: a) yadda saxlanılan materialın məzmunundan; b) fəaliyyətin xarakterindən; c) materialın rasional öyrənmək və yada salmaq priyomları və üsullarından istifadə etmək səviyyəsinə yiyələnməkdən asılıdır.

Əyani materialın daha yaxşı yadda saxlanması bütün kiçik məktəbli yaşı boyu davam edir. Yalnız orta məktəb yaşlarında mücərrəd mənalı sözlərin yadda saxlanılmasının məhsuldarlığı nəzərə çarpacaq dərəcədə artır. Bu fakt uşaqlarda mücərrəd təfəkkürün ümumi inkişafının nəticəsi hesab edilir. Bu uşaqların nəzəri biliklər, məsələn, qrammatik, riyazi, təbiətşünaslıq anlayışlarına yiyələnməsi prosesində formalaşır. A.A. Smirnovun, İ.A. Kornienkonun, E.A. Farapovanın tədqiqatları göstərir ki, IV sinif şagirdlərinin nəzəri bilikləri yadda saxlamasının məhsuldarlığı, onlar əyaniliyə istinad etdikdə daha da artır. [2]

V.İ. Samoxvalovanın tədqiqatları sübut etdi ki, hər hansı bir məzmunda materialın yadda saxlanmasının məhsuldarlığı II sinifdən IV sinfə qədərki müddətdə xeyli artır. Sözlü materialın yadda saxlanması imkanları, xüsusi minemik priyomların tətbiq olunması hesabına daha da artır. Konkret əşyaların və onların şəkillərinin yadda saxlanılmasında sözlərə istinad etmək faktları artır. Başqa sözlə desək onlar materialı sözlərlə daha yaxşı yadda saxlaya bilirlər. Əlbəttə, bu zaman yaddasaxlamada fərdi fərqlər də müstəsna deyildir.

Qeyd olunduğu kimi, məktəbə yeni gələn 6 yaşlılarda qeyri-ixtiyari yaddasaxlama üstünlük təşkil edir. Hafizənin digər daha mühüm növü olan ixtiyari yaddasaxlamanın inkişaf etdirilməsi isə məktəb təliminin qarşısında duran əsas vəzifələrdən biri sayılır [5].

Məktəbə yeni gəlmiş 6 yaşlı uşaqların hafizəsinin inkişafı ikinci və üçüncü səviyyəyə çatır. Belə ki, uşaqlar bu yaşda mnemik məqsədi kifayət qədər yaxşı ayırmağı bacarırlar. Bu uşaq aktiv yaddasaxlama və yadasalma tələbləri ilə üzləşən zaman baş verir. Lakin bu şəraitin olması hələ kifayət deyildir.

Yaddasaxlama nə ilə isə motivləşməlidir, mnemik fəaliyyətin özü isə uşaq üçün əhəmiyyət kəsb edən nəticə əldə etməyə gətirib çıxarmalıdır. Eksperimental yolla mnemik məqsədin ayrılmasının, uşağın icra etdiyi fəaliyyətin xarakterindən asılılığı müəyyən olunmuşdur. Müəyyən olunmuşdur ki, mnemik məqsədin dərk olunması, yaddasaxlama və yadasalmanın formalaşması üçün ən əlverişli şərait, uşağın onun fəaliyyətində yaşlıların tapşırığını yerinə yetirməsi şəraitidir. Təlim fəaliyyəti kiçik məktəblilərin ixtiyari hafizəsinin inkişafına əhəmiyyətli dəyişikliklər gətirir. Getdikcə ixtiyari hafizənin imkanları artır. A.N. Leontyevin, T.V. Rozanovanın tədqiqatları müəyyən etmişdir ki, uşaq məktəb həyatına adət etdikcə yaddasaxlamada təlim motivinin əhəmiyyəti artır. Məktəbəqədər yaş üçün xarakterik olan oyun motivi özünün aparıcı əhəmiyyətini tədricən itirir.

Kiçik məktəblilərin yaddasaxlamasına ustanovka da nəzərə çarpacaq dərəcədə təsir göstərir. Uşağın nəyə istiqamətlənməsindən asılı olaraq onun hafizəsinin məhsuldarlığı dəyişir. Şagirdlərdə uzun müddət yadda saxlamaq, materialı öz sözləri ilə danışmaq (yaxud əzbərləmək), ardıcıl olaraq yada salmaq zərurətinin olması ustanovkasını yaratmaqla, müəllim onların hafizəsində əhəmiyyətli dəyişikliklərin baş verdiyini müşahidə edə bilər.[4]

Kiçik məktəblilərdə qeyri-ixtiyari yaddasaxlamanın üstünlük təşkil etməsi heç də ixtiyari yaddasaxlamanın sıxışdırılıb aradan çıxarılması demək deyildir. P.İ. Zinçenkonun və A.A. Smirnovun tədqiqatları göstərir ki, qeyri-ixtiyari yaddasaxlama hətta yaşlı adamın təcrübə qazanmasında da əhəmiyyətli rol oynamaqda davam edir, xüsusilə də onun aktiv fəaliyyəti şəraitində. 6-10 yaşlı uşaqlarda qeyri-ixtiyari yaddasaxlama o zaman məhsuldar olur ki, yadda saxlanan material onların aktiv fəaliyyətinin məzmunu olur. Bu fəaliyyət xüsusi olaraq mnemik istiqa-

mət almadıqda da qeyri-ixtiyari yaddasaxlama yüksək məhsuldar olur. Kiçik məktəblilərin qarşısında nümayiş olunan şəkilləri yadda saxlamaq tapşırığı qoyan P.İ. Zinçenko eksperimental səviyyədə göstərdi ki, uşaqlar həmin şəkillərin məzmununu yaxşı yadda saxlayır, lakin həmin şəkillərin hər birində hansı rəqəmlərin yazıldığını heç cür yada sala bilmirlər. Tapşırığı dəyişib uşaqlara şəkillərin üstündə yazılan rəqəmlərə fikir vermək ustanovkasının verilməsi tədqiqatçıya əvvəlkinin əksi olan nəticələri əldə etmək imkanı verdi. Belə ki, uşaqlar rəqəmləri yaxşı yadda saxladı, şəkildə əks olunan əşyaların isə az bir qismini yadda saxlaya bildilər.

Kiçik məktəblinin ixtiyari yaddasaxlamasının inkişafının zəruri göstəricisi, onların yalnız qarşısını mnemik məqsədləri müstəqil qoymaq bacarığı deyil, eyni zamanda onun yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsidir. Uşaqların ixtiyari hafizəsinin inkişafı onların psixi fəaliyyətində ixtiyariliyin inkişafı ilə sıx bağlıdır. Onlara öyrənmənin rasional üsul və vasitələrinə yiyələnməyi öyrətdikcə, hafizənin bu növü də inkişaf edir. Kiçik məktəblilər, ümumiyyətlə, eşitdikləri və oxuduqlarını yadda saxlamağı öyrənməyin zəruri olduğunu bilir, mnemanik fəaliyyətin isə nə olduğunu bilmirlər. Buna görə də onlar öyrənilən mətndə nəyə daha çox diqqət yetirmək, əsasən nəyi yadda saxlamaq lazım olduğunu bilmir və əksər hallarda mətnin mənasına varmadan hissə-hissə əzbərləməyə cəhd göstərilir. Bu hala hətta yuxarı sinif şagirdlərində də rast gəlmək olur. Rasional öyrənmə üsulları içərisində ən önəmlilərindən biri bu və ya digər mətn üzərində iş proqramlarının tərtib olunmasıdır.

Pedaqoji praktika və xüsusi tədqiqatlar göstərir ki, hafizə uşağın intellektual fəaliyyətinin tərkib hissəsi kimi onun ümumi intellektual inkişafı prosesində təkmilləşir.

Beləliklə: 1. Kiçik məktəblilərin hafizəsi yüksək plastikliyi ilə seçilir ki, bu da materialın tez passiv hifz olunması və asanlıqla da unudulması üçün əlverişli şərait yaradır. Uşaq inkişaf etdikcə onun hafizəsi seçici xarakter alır. Belə ki, uşaq onun üçün maraqlı olan materialı daha yaxşı və uzun müddət yadda saxlayır və ondan öz fəaliyyətində istifadə edir.

2. Hafizənin inkişafı - yadda saxlanılan materialın həcminin böyüklüyündə; yada Salınan materialın tamlığı, sistemliliyi və dəqiqliyində; gizli (latent) dövrün uzunluğunda; yadda saxlamanın getdikcə məna əlaqəsinə daha çox söykənməsində; getdikcə qeyri-ixtiyari hafizənin ixtiyari hafizəyə çevrilməsində; uşaqların rasional öyrənmə üsullarına yiyələnməsində; hafizənin qavrayışın əsirliyindən azad olunmasında, tanımanın müstəsna əhəmiyyətinin itirilməsində, getdikcə hafizədə qalan materialın uşaqların daha sərbəst yadda saxlamasında təzahür edir.

3. Uşaq hafizəsinin məzununu əvvəllər qavranılmış əşyalar, icra olunmuş hərəkətlər və işlər, yaşanmış hisslər təşkil edir. Ömrünün ikinci ilindən başlayaraq uşaq hafizəsindən əvvəl sözləri, sonralar isə bütöv sözlər zəncirini saxlayır. Sonralar hafizənin məzmununu yalnız sözlərdən deyil, eyni zamanda fikirlərdən ibarət olur.

**Problemin aktuallığı**. Yaddasaxlamanın rasional priyomlarından istifadə etmək bacarıqları olmadıqda həm şagirdlərin, həm də yaşlıların hafizəsinin məhsuldarlığı azalır. Kiçik məktəblinin ixtiyari yaddasaxlamasının inkişafının zəruri göstəricisi, onların yalnız qarşısını mnemik məqsədləri müstəqil qoymaq bacarığı deyil, eyni zamanda onun yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsidir.

**Problemin yeniliyi.** Yaddasaxlamanın səmərəliliyi və öyrənilməsi zəruri olan materialdan müvəffəqiyyətlə istifadə etmək bacarığı, insan qavranılan mətni (məzmunu) mənimsəyə və ondan istifadə etmək üçün məlum sxemin tələbinə uyğun hərəkət edərkən xeyli artır.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə irəli sürülən təklif və nəticələrdən məktəb psixoloqları eyni zamanda sinif müəllimləri yararlana bilərlər.

**Ədəbiyyat:**

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998, № 6
2. Əlizadə Ə.Ə., Əmirov Q.N., Quliyev E.M. Məktəbli psixologiyası. Bakı, 1990.
3. Əlizadə Ə.Ə., Hikmət Ə. Əlizadə. Pedaqoji psixologiya. I-II kitab. ADPU. 2010.
4. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003.

**E-mail:** gulnarabdullayev@mail.ru
**Rəyçi:** *psixol. ü. fəls. dok., dos.* Z.M. Aslanova
**Redaksiyaya daxil olub:** 02.10.2018